**Azərbaycan Respublikasının**
**AUDİTORLAR PALATASI**

**CHAMBER OF AUDITORS**
**of the Republic of Azerbaijan**

AZ1072, Bakı, S.Y.Bakuvi küç. 35, Tel./Faks: 498-28-55, E-mail: audit-azerbaijan@audit.gov.az AZ1072, 35, S.Y.Bakuvi Str., Ph./Fax: 498-28-55

**Azərbaycan Respublikasının Prezidenti**
**Zati-aliləri cənab İlham Əliyevə**

**Möhtərəm cənab Prezident,**

Biz – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın Azərbaycan, Gürcüstan, İsrail, Qazaxıstan, Latviya, Litva, Moldova, Pakistan, Rusiya Federasiyası, Türkiyə və Özbəkistanı təmsil edən iştirakçıları olaraq, Sizin rəhbərliyinizlə həyata keçirilən ardıcıl və məqsədyönlü dövlət siyasəti nəticəsində Azərbaycanın dinamik sosial-iqtisadi tərəqqi yolunda mühüm nailiyyətlər qazandığını, beynəlxalq nüfuzunun davamlı şəkildə artırılmasını və müasir idarəetmə prinsiplərinə əsaslanan inkişaf modeli ilə regionda və daha geniş coğrafiyada örnək dövlət kimi tanındığını xüsusi ehtiram hissi ilə qeyd edirik və konfransın iştirakçılarına ünvanladığınız təbrik məktubuna görə Sizə dərin minnətdarlığımızı bildiririk. Konfrans iştirakçılarına göstərdiyiniz yüksək diqqət və etimadı bütövlükdə audit peşəsinə verilən böyük dəyərin mühüm ifadəsi kimi qiymətləndiririk.

Zati-alilərinizin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı sosial-iqtisadi islahatlar nəticəsində maliyyə hesabatlılığının etibarlılığı, hesabatvermə mədəniyyəti, şəffaflıq və audit institutunun cəmiyyət və dövlət üçün əhəmiyyəti daha da artmışdır. Böyük qürur hissi ilə qeyd edirik ki, müstəqil Azərbaycanın audit sistemi ölkə rəhbərliyinin dəstəyi ilə mühüm uğurlar qazanmışdır.

Konfrans çərçivəsində aparılan müzakirələr göstərdi ki, qlobal iqtisadiyyatın sürətlə rəqəmsallaşdığı, süni intellekt texnologiyalarının, böyük verilənlər analitikasının və rəqəmsal platformaların idarəetmənin ayrılmaz hissəsinə çevrildiyi müasir dövrdə audit institutu da müasir çağırışlara uyğun olaraq yeni keyfiyyət mərhələsində inkişafı mühüm bir zərurətə çevrilmişdir.

Bu baxımdan, Azərbaycanın rəqəmsal inkişaf və beynəlxalq rəqəmsal əməkdaşlıq sahəsində atdığı mühüm addımları xüsusi qeyd etmək istərdik. Ölkənizin 2026-cı il 1 sentyabr tarixində beynəlxalq hökumətlərarası Rəqəmsal Əməkdaşlıq Təşkilatına (DCO) üzvlüyü ilə bağlı atdığı addım Azərbaycanın qlobal rəqəmsal əməkdaşlıq məkanında fəal iştirakının və rəqəmsal iqtisadiyyatın inkişafına verdiyi önəmin göstəricisi kimi qiymətləndirilir.

Rəqəmsal İnkişaf Şurasının yaradılması, milli texnoloji potensialın gücləndirilməsi, rəqəmsal suverenliyin möhkəmləndirilməsi və innovasiya əsaslı iqtisadi modelə keçidin sürətləndirilməsi istiqamətində görülən işlər ölkənizin müasir texnoloji çağırışlara çevik və sistemli şəkildə cavab verdiyini nümayiş etdirir.

**Möhtərəm cənab Prezident!**

Sizi əmin edirik ki, konfrans iştirakçıları ölkələrimizdə həyata keçirilən iqtisadi siyasətin prioritetlərinə, şəffaflığın və hesabatlılığın daha da gücləndirilməsinə, maliyyə intizamının möhkəmləndirilməsinə və iqtisadiyyatda səmərəliliyin yüksəldilməsinə öz töhfələrini vermək əzmindədirlər.

Bir daha konfrans iştirakçılarına ünvanladığınız dərin məzmunlu və dəyərli tövsiyələri özündə ehtiva edən məktuba, audit peşəsinə və Auditorlar Palatasının fəaliyyətinə göstərdiyiniz yüksək diqqət və dəstəyə görə Sizə dərin təşəkkürümüzü bildirir, Azərbaycanın iqtisadi inkişafının, şəffaf və hesabatlı idarəetmə sisteminin daha da möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyiniz siyasətə bundan sonra da öz töhfəmizi verməyə hazır olduğumuzu bəyan edirik.

***Müraciət Azərbaycan Respublikası Auditorlar Palatasının 30 illik yubileyinə həsr edilmiş "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçıları tərəfindən qəbul edilmişdir.***

***Bakı şəhəri, 16 sentyabr 2026-cı il***